

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 10 (821) | 31 may 2016-cı il | Qiyməti 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**

# İlham Əliyev Dövlət Neft Şirkətinin yeni inzibati binasının açılışında iştirak edib



Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Son illərdə Bakıda tikilib istifadəyə verilən memarlıq nümunələri Azərbaycan paytaxtının inkişaf tempini göstərir, şəhərimizin abadlaşmasında və daha da gözəlləşməsində xüsusi rol oynayır. "Qara qızılı insan kapitalına çevirməliyik" məqsədini qarşıya qoyan dövlətimizin başçısı neftdən gələn gəlirlərin bir hissəsinin həm də nəhəng infrastruktur layihələrinin icrasına yönəltməklə bu gün Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bu prosesdə paytaxtın ən hündür "göydələn"i olan SOCAR-ın yeni inzibati binası xüsusilə seçilir. Bu nəhəng tikilinin təməli 2010-cu il oktyabrın 12-də Prezident İlham Əliyev tərəfindən qoyulub.



Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi.

# Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev Ağstafada vətəndaşlarla görüşüb



Mayın 20-də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Ağstafa rayonundakı Heydər Əliyev Mərkəzində Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarından vətəndaşları qəbul edib.

Görüşdən öncə cənab Əbülfəs Qarayev və Ağstafa rayonu İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev Heydər Əliyev Mərkəzinin qarşısında ümummilli liderin abidəsi önünə gül-çiçək dəstəsi qoyaraq xatirəsini ehtiramla yad etmişlər. Sonra yenicə əsaslı təmirdən çıxmış Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət ekspozisiya zalları ziyarət olunmuş, yenidənqurma işləri sayəsində yaradılmış ekoturizm mərkəzi, tədris və hazırlıq mərkəzi, ideya-resurs mərkəzi, distant təhsil mərkəzi və rəqs studiyası, rəsm qalereyası və uşaq yaradıcılıq studiyası, xarici dil kursu, xalçaçılıq və moda studiyası, 400 yerlik akt zalı ilə yaxından tanış olunmuşdur.

Mədəniyyət və turizm naziri cənab Əbülfəs Qarayevə edilən müraciətlər yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılması, kadr təminatı, tarixi-mədəni abidələrin təmir-bərpası, bölgələrdə turizm imkanlarının inkişaf etdirilməsi və digər məsələlərlə bağlı olub.

Qəbula gələn bütün vətəndaşları diqqətlə dinləyən nazir Əbülfəs Qarayev ayrı-ayrı müraciətlərlə bağlı müvafiq göstərişlər verib.

Regionların turizm imkanlarının təbliğinə dair təkliflərin də nəzərdən keçiriləcəyini bildirən nazir vətəndaşların təşəbbüskarlığını yüksək qiymətləndirdi.

Vətəndaşların qəbulundan sonra nazir Əbülfəs Qarayev Ağstafa rayonu İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevlə birlikdə ilk olaraq açıq səma altında salınan Tarixi və Müasir Abidələr Parkı ilə tanış olub.

Əbülfəz Qarayev daha sonra Heydər Əliyev parkına baş çəkib, burada fəaliyyət göstərən səyyar kitabxananın işi ilə tanış oldu. Rayonda yeni inşa edilmiş Ağstafa rayon Musiqi mərkəzi ilə tanış olan nazirə məlumat verilib ki, Musiqi məktəbinin yeni binası dövlət başçısının "Ağstafa rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq inşa edilmişdir. Musiqi məktəbində yaradılan şəraiti yüksək qiymətləndirən qonaq burada təhsil üçün gözəl imkanların yaradıldığını qeyd etmişdir.

Mədəniyyət və turizm naziri yenidən qurulan Ağstafa rayon Mədəniyyət mərkəzinə də baxış keçirilmiş və ona Mədəniyyət mərkəzində aparılan əsaslı yenidənqurma işləri barədə ətraflı məlumat verilmişdi.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Ağstafadan xoş təəssüratlarla ayrılmışdı.



# Məqsədimiz xalqa xidmətin səviyyəsini yüksəltməkdir



Rayon İcra Hakimiyyəti başçısının yerlərdə ictimaiyyətlə görüşlər keçirməsi rayonda ənənəyə çevrilmiş və bu ənənə 2016-cı ilin ilk aylarından davam etdirilməkdədir. Bu görüşlərdə əsas məqsəd xalqa xidmətin səviyyəsini daha da yüksəltməkdən, onların sosial problemlərini həll etməkdən, ailələrdə olan çətinlikləri aradan qaldırmaqdan ibarət olmuş və bu məqsədyönlü iş bu gün də öz müvəffəqiyyətli həllini tapır. Belə bir görüş may ayının son günlərində 1204 nəfər əhalisi olan Pirli kəndində olmuşdu.

Kəndin mərkəzində açıq havada keçirilən görüşə gələnlər heç bir maneə ilə üzləşmədən icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevlə görüşmüş və öz ürək sözlərini ona bildirmişlər.

M.Quliyev görüşün əvvəlində ölkədə baş verən hadisələr, aparılan quruculuq abadlıq işləri haqqında qısa məlumat verərək bildirmisdi ki, bu gün Azərbaycan Respublikasının adı dünyanın ən inkişaf etmiş dövlətlərinin sırasındadır. Ölkəmizin nüfuzu beynəlxalq aləmdə gündən-günə artmaqdadır. Son illər respublikamızda beynəlxalq miqyaslı idman yarışlarının, kütləvi tədbirlərin keçirilməsi onu göstərir ki, Azərbaycan siyasi münaqişələrdən uzaq olan və bu ölkə siyasi cəhətdən sabit, sosial-iqtisadi baxımdan inkişaf etmiş ölkələrdən biridir. Bu gün böyük iftixarla demək olar ki, dünyanın əksər dövlətlərinin diqqəti Azərbaycana yönəlmişdi. Çünki Azərbaycanın 20% torpaqlarını işxal etmiş Ermənistana qarşı aparılan mübarizədə hamı bizim dövlətimizin mənafeyini müdafiə edir. Bu il aprel ayının əvvəllərində Azərbaycan ordusunun Qarabağda döyüşlərdə göstərdiyi şücaət hamıya yaxşı bəllidir. Ən başlıcası isə odur ki, dünyanın ən nüfuzlu dövlətləri bizim ədalətli mövqeyimizi müdafiə edir, ata-baba torpaqlarımızın azadlığı uğrunda apardığımız mübarizəni dəstəkləyirlər.

Qarabağda gedən döyüşlərdə Azərbaycan ordusu öz sözünu dedi. Bu isə ondan ibarətdir ki, ermənilər tərəfindən işğal olunmuş torpaqlar sözsüz boşaldılmalı, azərbaycanlılar öz ata-baba yurdlarına qayıtmalıdırlar.

M.Quliyev daha sonra qeyd etdi ki, belə bir müharibə şəraitində Azərbaycanın sosial-iqtisadi inkişafı bütün regionlarda sürətlə davam edir. Son illər rayonumuzda aparılan tikinti-quraşdırma, abadlıq, yenidənqurma işləri onu göstərir ki, ağstafalılar möhtərəm prezidentimiz cənab İlham Əliyevin hər bir tapşırığını yerinə yetirmək üçün əllərindən gələni etməyə hazırdırlar.

Sürətli inkişaf bu gün təkcə rayonumuzun mərkəzində deyil eləcə də rayonun bütün yaşayış məntəqələrində həyata keçirilir. Pirli kəndindəki bir neçə il bundan əvvəlki vəziyyəti göz önünə gətirsək hər şey aydın olar. Bu gün Pirlidə qaz, işıq problemi demək olar ki, yox dərəcəsindədir. Kəndin mərkəzi küçəsinə yüksək keyfiyyətli asfalt örtük salınmışdı. Əlbəttə, bütün bunlar heç də o demək deyildir ki, Pirlidə problem yoxdur inkişaf olan yerdə problem də olmalıdır. Biz belə görüşləri ondan ötrü keçiririk ki, sizin problemərinizi öyrənək və həll edək.



M.Quliyev yığıncaq iştirakçılarına müraciət edərək ürək sözlərini deməyi, onları narahat edən məsələlərdən danışmağı bildirdi.

Kəndin ziyalısı, təqaüdçü müəllim Saqif Əliyev çıxış edərək kənd camaatı ilə görüşə gəldiklərinə görə Rayon İcra Hakimiyyəti rəhbərliyinə, eləcə də görüşdə iştirak edən idarə müəssisə rəhbərlərinə kənd camaatı adından dərin minnətdarlığını bildirdi. O qeyd etdi ki, Pirli kəndi rayonun ən abad, səfalı yaşayış məntəqələrindən biridir. Kənddə qaz, işıq, su, yol problemi demək olar ki, tamamilə həll olunmuşdur. Yalnız bir problemimiz var ki, o da kəndimizdəki məktəb binasının müasir tələblərə cavab verməməsidir. Məktəbin belə vəziyyətdə olması sözsüz ki, tədrisin keyfiyyətinə öz təsirini göstərir. Odur ki, mən xahiş edirəm ki, yaxın gələcəkdə kəndimizdə yeni məktəb binasının inşa olunmasına köməklik göstərilsin.

Kənd sakini Şakir Vəliyev öz çıxışında ailə problemindən danışdı. O xahiş etdi ki, oğlunun işlə təmin olunmasında ona köməklik göstərilsin.

Kəndin sosial problemlərindən danışanlar isə kəndin içməli su xəttində bəzi problem olduğunu göstərdilər. Bu səbəbdən kəndin bəzi yerlərində əhalinin su təminatında müəyyən problemlər var.

Rayon İcra Hakimiyyətinin başçısı M.Quliyev görüşdə qaldırılan poroblemlərə öz münasibətini bildirdi və qeyd etdi ki, göstərilən çatışmazlıqların aradan qaldırılması üçün bütün imkanlardan istifadə olunacaq. M.Quliyev görüşdən sonra Pirli, Kolxəlfəli və digər qonşu kəndlərdə baramaçılıqla məşğul olan vətəndaşların işi ilə yaxından tanış oldu və onlara yüksək məhsul yetişdirmələrində uğurlar arzuladı.

***İbrahim Əliyev***

## 28 May - Milli İstiqlal günü

# Elmi nəzəri konfrans

***Bu günlərdə Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının iqamətgahında 28 May- Respublika günü - Milli İstiqlal bayramı münasibətilə elmi nəzəri konfrans keçirilmişdir. Konfransa rayonun təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin partiya fəalları, şəhər ictimaiyyətinin, müharibə və əmək veteranlarının, ziyalıların nümayəndələri, ağsaqqallar və gənclər dəvət olunmuşdular.***

***Konfransı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova açmışdır. O qeyd etmişdir ki, Zaqafqaziyada mövcud olan Seymin süqutundan dərhal sonra Azərbaycanın istiqlaliyyətini elan etmək məqsədilə Seymin bütün müsəlman nümayəndələri Tiflisdə bir yerə toplaşırlar.***

1918-ci il may ayının 28-də Tiflis şəhərində Qafqaz camişininin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli İslam Şurasının iclası keçirilir və burada dövlət müstəqilliyinin elan olunması haqqında “İstiqlal bəyənnaməsi“ qəbul olunur. Beləliklə Fətəli xan Xoyskinin rəhbərliyi ilə Azərbaycan xalq Cümhuriyyətinin ilk müvəqqəti hökuməti təşkil olundu. Bununla da 1918-ci il mayın 28-də şərqdə ilk demokratik dövlət-Azərbaycan Xalq Cümhuriyyəti yaradılır.

Əfsus ki, şərqdə ilk demokratik dövlətin ömrü az olur. Daxili və xarici düşmənlərin əli ilə bu demokratik respublika elə beşikdəcə boğuldu. Cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti bolşevik rejiminin təsiri altında sovet hakimiyyətinin cənginə keçdi. Buna baxmayaraq ilk demokratik respublika sonrakı nəsillərin yaddaşında xalqımızın şanlı tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır

Sovetlər dövründə uzun illər rus imperiyasının tərkibində mövcud olan Azərbaycan respublikası bütün qadağalara və məhrumiyyətlərə baxmayaraq həmişə ürəkdən azadlıq ideyalarını yaşatmış, öz milli istiqlaliyyətinə qovuşmaq naminə mübarizəni davam etdirmişdi. Nəhayət xalqın bu arzusu sovetlər birliyinin dağılmağa başladığı bir vaxtda-1991-ci il oktyabrın 18-də həyata keçdi. Azərbaycan ikinci dəfə öz müstəqilliyini elan edərək yenidən istiqlala qovuşdu.

Ağstafa şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi, Əməkdar müəllim İndira Səmədova konfransda geniş məruzə etdi. O qeyd etdi ki, respublikamız ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra əsrin əvvəlindəki tarix az qala yenidən təkrar olunacaqdı. Yenidən ciddi təhlükələrlə üz-üzə qalan dövlətçiliyimiz bu dəfə ulu öndər Heydər Əliyevin böyük səyi nəticəsində təhlükədən xilas ola bildi. Onun düzgün və düşünülmüş daxili və xarici siyasəti müdrik rəhbərliyi ilə müstəqillik yolunda çox uğurlu addımlar atıldı. Ardıcıl həyata keçirilən planlı tədbirlər sayəsində müstəqil dövlətimiz ildən ilə inkişaf etdi. Dünyanın tanınmış ölkələri səviyyəsinə yüksəldi. Bu gün fəxrlə deyə bilərik ki, Heydər Əliyev məktəbinin layiqli varisi, müstəqil Azərbayca Respublikasının prezidenti cənab İlham Əliyevin ciddi səyi və fədakar əməyi ilə ölkəmiz inkişaf yolunda inamla irəliləyir.

Elmi-nəzəri konfransda çıxış edən natiqlər Respublika günü münasibətilə konfrans iştirakçılarını, bütün xalqımızı ürəkdən təbrik edərək ümummilli liderimiz Heydər Əliyevin bir kəlamını qürur və fəxarət hissilə xatırladılar:” Müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhiriyyətinin varisidi”

Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin, o cümlədən onun dövlət və hüquq tarixinin dərindən, hərtərəfli öyrənilməsi həmişə aktual bir məsələ kimi əhəmiyyət kəsb edir.

# Baramaçılığın inkişafında mühüm addımlar atılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Ağstafa rayonunda ənənəvi məşğuliyyət sahəsi olan baramaçılığın bərpası istiqamətində məqsədəuyğun tədbirlər həyata keçirilir. Belə ki, rayonda baramaçılıq sahəsində səriştəsi və təcrübəsi olan şəxslər müəyyən edilmiş və daha sonra bu sahənin inkişaf etdirilməsi üçün Balakən rayonundan 35 qutu tut ipəkqurdu gətirilmişdir. Rayonun 16 yaşayış məntəqəsində barama istehsalını nizama salmaq üçün münasib binalar ayrılmışdı. İpəkqurdunun bəslənməsi və yarpaq tədarükü üçün mütəmadi tədbirlər görülür və hazırda ipək qurdunun barama sarımağa başlaması müşahidə edilir. Barama istehsalçıları tərəfindən 2000 kq-a qədər yüksək keyfiyyətli barama istehsalı gözlənilir.

## Pirli kəndi

Yaşadığım Pirli kəndinin əhalisinin əsas məşğulluğu əkinçilik və heyvandarlıqdır. Kəndimizin sakinlərinin çoxu demək olar ki, mal-qara saxlayır, bir hissəsi isə üzüm becərir, tərəvəz yetişdirir.

Bu il yaz ayının əvvəllərində eşitdim ki, kəndimizə barama gətiriləcək. Doğrusu barama haqqında çox eşitmişdim, ancaq onu görməmişdim. Ağsaqqallar və valideynlərim bu barədə mənə az da olsa danışmışdılar. Baramaçılığın gəlirli sahə olduğunu da demişdilər. Odur ki, kəndimizə barama gətiriləndə mən də barama yetişdirmək arzusunda olduğumu bildirdim. Rayon rəhbərliyi, daha doğrusu Rayon Kənd Təsərrüfatı idarəsi tərəfindən bizim ailəyə də 40 min ədəd baramaqurdu verdilər. Hətta barama saxlamaq üçün yer də ayırdılar. Sağ olsun 26 saylı yol idarəsinin rəisi Xanoğlan müəllim. O barama saxlanılacaq otaqda şəraitin yaradılmasında bizə yaxından köməklik göstərdi.

Artıq baramaqurdu götürdüyümüz vaxtdan bir aya yaxın vaxt keçir. Demək olar ki, baramanın yetişməsinə çox az vaxt qalır. Bir neçə gündən sonra əməyimizin bəhrəsini görəcəyik. Əminəm ki, son nəticə bizi sevindirəcəkdir. Ən başlıcası isə odur ki, rayonun rəhbər işçiləri bizim işimizlə yaxından maraqlanır və demək olar ki, bizə hər gün baş çəkir, qayğı göstərirlər.



Baramanın saxlanılmasında anam Tamella Nəsibova da mənə yardımçı oldu. O Rayon Mərkəzi Xəstəxanasında tibb bacısı işləyir. Barama saxlamağa başladığımız ilk gündən anam məzuniyyətə çıxdı və bu günə kimi mənimlə bərabər işləyir. Mən böyük əminliklə deyə bilərəm ki, gələn il də bu gəlirli sahə ilə məşğul olacağam.

***Günel Hacıyeva***
***Pirli kənd sakini.***

## Dağkəsəmən kəndi

Rayon Kənd Təsərrüfatı idarəsindən bizə bildirdilər ki, digər kəndlərə nisbətən Dağ Kəsəmən kəndində barama yetişdirilməsinə xüsusi fikir verilmiş və burada məhsuldarlığın digər kəndlərə nisbətən daha yüksək olacağı gözlənilir. Odur ki, biz bu günlər Dağ Kəsəmən kəndində olduq, kənd icra nümayəndəsi Fazil Bayramovla və bələdiyyə sədri Ariz Bayramovla görüşüb söhbət etdik və kənddə barama yetişdirilən ünvana baş çəkməyi qərara aldıq.



İlk baxışda gördüklərimiz bizi valeh etdi. Çünki çoxdan idi ki, biz də baramaçılıqla məşğul olan insanlarla görüşüb onların işi ilə yaxından tanış olmurduq.

Baş çəkdiyimiz ilk ünvan Dağ Kəsəmən kənd sakini Arif Alməmmədovun evi oldu. Həyətə daxil olanda qəribə bir mənzərə ilə üzləşdik. Arif özü, övladları, yaxın qohumları Kifayət, Tükəzban Alməmmədova, Vəli Məmmədov, Eynur Qarayusibov, Kamran Qafarov, Orxan İsayev və başqaları həyətdə barama qurdu üçün tut yarpağının hazırlanması, barama qurdunun yerləşdirildiyi tərəcələrin təmizlənməsi və digər işlərlə məşğul idilər.

Ilk müsahibimiz ev sahibi Arif Alməmmədov oldu. Onun zəhmətkeş bir insan olmasını yaxşı bilirdim. Ağstafada aftonəqliyyat bazasında işləyirdi. Bu gün isə fürsətdən istifadə edib barama yetişdirilməsilə məşğuldur. Söhbət zamanı Arif Alməmmədov bildirdi ki, may ayının ikisində 40 qram barama qurdu götürmüşdü. Evinin birinci mərtəbəsində otaqların birində barama qurdu üçün yer ayırmışdı. O qeyd etdi ki, sağ olsun Yaşıllaşdırma idarəsinin rəhbəri Fəxrəddin Rzayev. Onun da bizə çox yaxşı köməyi dəydi. Barama qurdu ücün tərəcələrin hazırlanmasında, yaşıl tut yarpaqlarının gətirilməsində bizə necə lazımdı köməklik göstərdi.

Artıq bir neçə gündür ki, barama qurduna qulluq göstəririk. 10 gün müddətində barama qurdları o qədər sürətlə böyüdülər ki, mən onlar üçün ikinci bir otaq da ayırdım. İndi hər iki otaqda barama qurdlarına qulluq göstəririk. Əvvəllər kəndimizdə bu gəlirli sahə ilə məşqul olunurdu. O vaxtlar elə kəndimizin özündə cır tut bağları var idi. Bu gün isə həmin bağlar yoxdur. Bu isə işimizdə bir qədər çətinliklər yaradır. Söz yox ki, gələcəkdə kəndimizin ərazisində cır tut bağlarının salınmasına xüsusi fikir verəcəyik.

Barama qurdunun məhsuldarlığından söhbət düşəndə Arif Alməmmədov bildirdi ki, 150 kiloqrama qədər məhsul əldə edəcəyimizə ehtimal var. Əvvəllər barama qurdunun məhsulunun bir kiloqramının qiyməti 3 manat olub. Sağ olsun hörmətli prezidentimiz. Deyilənlərə görə həmin qiymət 8 manata çatdırılıb. Mən əminəm ki, bu da son rəqəm olmayacaq. Gələcəkdə barama məhsulunun qiymətinin daha da artırılmasına xüsusi fikir veriləcəkdir.

Biz xoş təəssüratla bu zəhmətkeş insanlardan ayrıldıq. Və əmin olduq ki, onların zəhməti hədər getməyəcək, gördükləri iş dövlət tərəfindən yüksək qiymətləndiriləcəkdir.

***İbrahim Əliyev***



Cəmi 50 il yaşamış dahi xalq şairimiz Səməd vurğunun əbədi dünyaya qovuşmasından 60 il keçir. Bu illər ərzində nəinki doğma xalqı, dünya ədəbiyyatının görkəmli nümayəndələri, müxtəlif millətlərə mənsub olan poeziya pərəstişkarları, adını eşidib üzünü görmədikləri saysız-hesbsız oxucuları onu həmişə sevəsevə yad etmiş, adına və xatirəsinə böyük ehtiram bəsləmişlər. Müasir poeziyanın dühası sayılan Səməd Vurğun bu gün də çağdaş ədəbiyyatımızın önündə gedərək bütün yazarların yaradıcılıq yoluna parlaq mayak kimi nur saçır.

Bu günlərdə Ağstafa Yazıçılar Evində Azərbaycan Yazıçılar Birliyi

# Dahi xalq şairinə böyük ehtiram

Qazax zona filialının və "Yazıçılar Evi"nin birgə təşkilatçılığı ilə dahi şairimizin vəfatının 60 illiyinə həsr edilmiş anım mərasimi keçirilmişdir. Rayonun yazarları, el şairləri, ədəbi ictimaiyyətin nümayəndələri, Səməd Vurğun poeziyasının alovlu pərəstişkarları "Yazıçılar Evi"nə toplaşmışdılar.

Mərasimi Ağstafa Yazıçılar Evinin rəhbəri yazıçı-publisist Firdovsi Heydərli açdı. AYB Qazax zona filialının sədri, Əməkdar İncəsənt Xadimi şair Barat Vüsal Səməd Vurğun yaradıcılığının xarakterik xüsusiyyətlərindən, ilahi istedadı ilə qazandığı əbədi şöhrətdən, ümumxalq məhəbbətindən danışdı.

Sevimli şairin anım mərasimində iştirak etmək üçün təşrif buyurmuş neftçi şair Zaməddin Ziyadoğlu, tanınmış şair Ələddin İncəli Səməd Vurğun haqqında xatirələr danışdı, ona həsr etdikləri şerlərini oxudular. Onların ardınca çıxış edən yerli yazarlar Telman Kürsoy, Nəriman Mehdixanlı, Telman Qəhrəmanlı, Qurban Həmidoğlu, Şahin Qurban, Saqif Qaratorpaq, Usta Qafar, Kərim Mərciməkli dahi Azərbaycan şairinin dünya şöhrətindən danışaraq görkəmli ədəbiyyatşunasların, alim və filosofların Səməd Vurğun barədə fikirlərini yada saldılar.

Səməd Vurğun poeziyasın alovlu pərəstişkarı olan Misir Həsənov, qocaman müəllim Mahmud Məmmədov, Yaqub İsmayılov, Aydın Tağızadə və başqaları görkəmli xalq şairimizin bu gün də Azərbaycan poeziyasında tutduğu mövqeni xüsusi qeyd etdilər, Səməd Vurğun şerlərindən nümunələr söylədilər. Anım mərasimində Vurğun haqqında danışılan xatirələr daha maraqla qarşılanmışdır. Mərasim bu gün də dahi şairə qarşı çıxmağa, onu fəlsəfi fikirlərini təhrif etməyə çalışan bədxah qüvvələrə layiqli cavab kimi səslənmişdir.

# Dərs ilinin başa çatmasına az qalır

Artıq dərs ili başa çatmaq üzrədir. Ümumtəhsil məktəblərinin şagird və pedaqoji kollektivləri cari dərs ilində əldə etdikləri nəticəni təhlil edir, qarşıda duran vəzifələri müəyyənləşdirirlər. Bununla birlikdə yuxarı sinif şagirdləri buraxılış imtahanlarına ciddi hazırlaşır, ali məktəblərin ünvanını soraqlaşırlar. Bu məzmunda başa çatmaqda olan cari dərs ilində bir çox tədbirlər də həyata keçirilmişdir. Əməkdaşımız rayon təhsil şöbəsinin metod kabinet müdiri İmran Nəsibovla görüşmüş, ondan bu barədə sorğu götürmüşdür. Həmin sorğuya verilən cavabı dərc edirik.

### Fənn olimpiadaları

2015-2016-cı dərs ilində məktəblilərin fənn olimpiadalarının rayon mərhələsi keçirilmişdir. Bu mərhələdə iştirak edən 285 nəfər şagirddən 46 nəfəri zona mərhələsinə vəsiqə almışdır. Zonada iştirak edən şagirdlərdən 7 nəfəri respublika finalına vəsiqə qazanmışdır. Tarix fənni üzrə Zəlimxan kənd tam orta məktəbin X sinif şagirdi Cəsur Cəfərov, Dağkəsəmən 1 saylı məktəbin IX sinif şagirdləri Faiq Əliyev və Lətifə Mustafayeva, Liseydən XI sinif şagirdi Pərvin Qocazadə, Ana dili və ədəbiyyat fənni üzrə Dağkəsəmən 1 saylı orta məktəbin V sinif şagirdi Əsli Qurbanova, şəhər 2 saylı orta məktəbin X sinif şagirdi Aytac Alməmmədova bu sıradadır. Respublika mərhələsində Lətifə Mustafayeva III yeri tutaraq bürünc medalla, İmran Məmmədov isə II yeri tutaraq gümüş medalla təltif olunmuşlar.

### Müsabiqələrin qalibləri

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə rayon ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin rayon mərhələsi keçirilmişdir. Bu mərhələnin qalibi şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi Fatimə Hüseynli respublika mərhələsində birinci yeri tutmuşdur.

Təhsil nazirinin müvafiq əmrinə əsasən isə ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdləri arasında "Ədəbiyyat birinciləri" müsabiqəsinin rayon mərhələsinin qalibi Köçəsgər kənd 1 saylı tam orta məktəbin IX sinif şagirdi Aybəniz İsmayılova respublika mərhələsində III yeri tutmuşdur.

### Zona mərhələsində

Ailə Qadın və Uşaq problemləri üzrə dövlət komitəsinin təşəbbüsü ilə görkəmli oftalmoloq Zərifə Əliyevanın anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Qələbəyə doğru" kuboku uğrunda intellektual oyunda rayonumuzun komandası zonada qalib gəlmiş, respublika finalında "Fəal iştirakına görə" diploma təltif olunmuşdur.

Çağırışaqədər və çağırışyaşlı gənclər arasında "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının zona turunda birinci yeri tutan Qıraq Kəsəmən kənd tam orta məktəbin komandası respublika finalında III yeri tutmuşdur.

"Sərhəd" hərbi idman oyununun rayon mərhələsinin qalibi Böyük Kəsik kənd tam orta məktəbin komandası zona mərhələsində də qalib gəlmişdir və respublika mərhələsində rayonumuzu layiqincə təmsil edəcəkdir.

### Bilik yarışları

Bu yarış ilboyu davam edir, istedadlılar aşakar olunur. İstedadlı və zəkalı şagirdləri müəyyən etmək üçün ayrı-ayrı fənlər üzrə biliklər yoxlanılır, nəticələri elan edilir. İkinci və səkkizinci sinif şagirdləri arasında keçirilmiş yarışda istedadlılar müəyyən edilmişdir. Məktəblərin VII və VIII siniflərində rus dili fənnindən bilik yarışı, VIII sinif şagirdləri arasında isə ana dili və riyaziyyat fənlərində bilik yarışları keçirilmiş, qaliblərimiz müəyyənləşdirilmişdir.

# Kross qaçışı üzrə rayon birinciliyi

Hər il olduğu kimi bu il də Respublika gününü rayonun Gənclər və İdman idarəsi böyük coşqu və təntənə ilə qeyd etmişdi. İdarənin bayramqabağı keçirtdiyi tədbirlərdən önəmlisi kross qaçışı yarışı olmuşdur. Mayın 25-də kross qaçışı üzrə rayon birinciliyində rayonun 30 tam orta məktəbindən 250 nəfər şagird iştirak etmişdir. Yeniyetmə və gənclərin hər biri qaçışa əzmlə, ruh yüksəkliyi ilə hazırlaşıb gəlmişdilər.

Kross yarışına Ağstafa şəhər stadionunun qarşısından start verilmişdir. Yarış iştirakçıları 7 kilometr məsafə qət etmişlər. Qaçışın finiş xətti ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzin önündə yekun vurulmuşdur. Burada finiş xəttinə daha tez çatan məktəblilər müəyyənləşmişdir. Qaçışda birinci yerə Amil Murğuzov, ikinci yerə Kərim Məmmədov, üçüncü yerə Rəşad Yusifov, dördüncü yerə Yusif Axundov, beşinci yerə Sergey Hüseynov layiq görülmüşlər.

Həmin gün Mərkəzin önündə yarış qaliblərinin təntənəli təltif olunma mərasimi keçirilmişdir. Qaliblər rayon Gənclər və İdman idarəsi tərəfindən təsis edilmiş diplom, medal və qiymətli hədiyyələrlə təltif olunmuşlar. Yarış iştirakçıları qalibləri çoşqunluqla təbrik edib alqışlamışlar.

Toplantıda rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova, rayon gənclər və idman idarəsinin rəisi Feyruz Həsənov 28 May Respublika günü münasibətilə geniş çıxış etmiş, idmançıların bayramlarını təbrik etmişlər.

***Turan Hüseynov,***
***Rayon gənclər və idman idarəsinin baş məsləhətçisi.***



# Futbolçuların qələbəsi

Ağstafa şəhər 1 saylı tam orta məktəbin futbolçuları respublika yarışında uğurla çıxış etmişlər. May ayının son günlərində Bakı şəhərinin Hövsan qəsəbəsində keçirilən yarışda 70-ə yaxın komanda iştirak etmişdir.

Mini futbol yarışında komandamız Kürdəmir, Sumqayıt, Ağcabədi rayonlarınının komandalarını məğlub edərək finala vəsiqə almışlar.

Final yarışında Mingəçevir komandası ilə mübarizə aparan futbolçularımız öz güclərindən tam istifadə edə bilməmiş, 2-ci yerlə kifayətlənmişlər.

Komandanın rəhbəri Fazil Vəliyev əçməkdaşımızla söhbət zamanı gənc futbolçulardan Firuz Əsədovun, Turan Məmmədovun, Elcan Şirinovun, Nihad Qurbanovun, İsgəndər Yaqublunun, Fərid Məmmədzadənin, Əli Kərimovun, İlham İbrahimovun, Ramin Bayramovun, Turan Aşurovun adlarını iftixarla çəkdi.

Yarışda komandannı üzvü Turan Məmmədova mövsümün ən yaxşı futbolçusu adını verdilər. F.Vəliyev qeyd etdi ki, bu gənclərə mənim ümidim çoxdur. Şübhə etmədən deyə bilərəm ki, onlar gələcək illərdə keçirilən yarışlarda ən yüksək pilləyə qalxacaqlar.


## Ağstafa Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi 2016-ci il üçün katirovka sorğusu elan edir

MKT birliyinin işçiləri üçün xüsusi geyim və mal materiallarının alınması.
**Ünvan:** Hüseyn Arif küçəsi, 5.
**Əlaqə telefonu:** 0222 5-37-97.


## Etibarsız sayılır

Dağ Kəsəmən kənd sakini Şəfiyeva Tünzalə Nəriman qızının adına olan JN-1085 nömrəli Torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Ağstafa rayonunun Sadıxlı kəndində yaşayan Muradova Sevil Məhəmməd qızının adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN-46A nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Xılxına kənd sakini Məmmədəliyeva Gilas Bədəl qızının adına olan 487 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Reportaj

# Biz ikinci sinifə keçdik

Ağstafa şəhər 1 saylı tam orta məktəbindəyik. Respublika günü ərəfəsində adi dərs günlərindən biridir. Buna baxmayaraq məktəbdə qeyri-adi canlanma vardı. Şagirdlərin hər birisinin üzündən sevinc, fərəh süzüldüyünü açıq-aydın hiss etmək olurdu. Nədir buna səbəb? Cavabı adi də görünsə, adamda qəribə hislər oyadır: birincilər ikinci sinifə keçməklərini qeyd edirlər. Hər birimizin kövrək, yaddan çıxmayan duyğularıdır...





Məktəbin akt zalında hərə öz yerini tutur. Valideynlər bir-birini təbrik edə-edə səhnəyə doğru boylanırlar. Budur "Məktəb illəri" mahnısının sədaları altında başlarına tac fiqurali hərflər qoymuş birincilər sıra ilə zala daxil olub səhnəyə qalxırlar. Alqışlar birinciləri ağuşuna alıb göylərə qaldırır. Dövlət himni alqışlara qarışıb tədbirin başlanmasından xəbər verir.

Aparıcı məlumat verir: əziz valideynlər, müəllimlər və qonaqlar, məktəbimizin birinci sinif şagirdləri keçdikləri dərsləri müvəffəqiyyətlə mənimsəyərək ikinci sinifə keçdilər. Bu münasibətlə hamınızı təbrik edirik. Uşaqlar əlifbanı öyrəndiklərinə aid şerlər söylədilər, rəqs etdilər. "Ysaq və buz" hekayəsi əsasında səhnəcik oynadılar. "Turp" səhnəciyi də çox maraqla qarşılandı. "Naz eləmə", "Qara göz boy-boy" rəqsləri hamının xoşuna gəldi, dəfələrlə alqışlandı.

Birincilər öz məharətlərini, istedadlı olmalarını əsl mənada nümayiş etdirdilər. Aparıcı elan etdi ki, indi də birincilər dahi şairimiz Səməd Vurğunun "Vaqif" dramından bir parçanı oynayacaqlar. Zala sükut çökdü. Bütün diqqətlər səhnəyə yönəldi. Budur, Qacar zəhmli baxışlarıyla taxtına əyləşib el şairi Vaqifi hədələyir. Vaqif də ona sərras şəkildə cavab verir. Yaşlı nəslin yadında olar bu dramatik səhnə. Birinci sinifin uşaqları bu səhnəni elə sərbəst, elə məntiqli oynadılar ki, gəl görəsən.

Birincilər vətənpərvərlik mövzusuna da əl qatdılar. Əsgər forması geyinmiş oğlan və onun məsləkdaşları Qarabağ olaylarından mənalı sözlər danışdılar. Bundan sonra onlar rus dilində şerlər söylədilər. Cavan və istedadlı aşıq Qoca tədbiri daha da rövnəqləndirdi. Uşaqlar "Əziz müəllim" kitabı ilə öz şənliklərinə yekun vurdular.

Şənlikdə rayon təhsil şöbəsinin müdiri Leyla İsayeva, metotkabinetin müdiri İmran Nəsibov iştirak edib. Yekunda uşaqları, valideynləri şənlik münasibətilə təbrik etdilər. Məktəbin direktoru Sahilə Xəlilova çıxışında qeyd etdi ki, indiyə kimi əldə etdikləri nailiyyəti bundan sonra da artıracaqlar. Birinci sinif müəllimi Vəfa Qurbanovanın apardığı iş, uşaqları fəal kimi yetişdirdiyi hamı tərəfindən çox rəğbətlə qarşılandı, ona gələcək işində uğurlar arzulandı.

***Qəhrəman Qurbanov.***

# Gənc mədəniyyət işçilərinin görüşü

***Yeni Azərbaycan Partiyasının Ağstafa rayon Təşkilatının inzibati binasında Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy rayonlarından olan "Gənc mədəniyyət işçilərinin koordinasiya kreativ qrupu"nun görüşü keçirilmişdir.***



Tədbirdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin və Ağstafa Rayon İcra Hakimiyyətinin məsul işçiləri, Mədəniyyətşünaslıq üzrə elmi metodiki mərkəzin əməkdaşları, eləcə də bölgədən olan qabaqcıl gənclər iştirak etmişlər. Tədbirdə ölkəmizin mədəniyyət sahəsində çalışan gənclərə göstərilən yüksək dövlət qayğısından geniş bəhs olundu, "Gənc mədəniyyət işçilərinin koordinasiya kreativ qrupu"nun məqsədi və əsas fəaliyyət istiqamətləri, prioritet hədəfləri barədə dolğun məlumat verildi. Qeyd olundu ki, paytaxtda və regionlarda çalışan gənc mədəniyyət işçiləri qrupu hər şeydən əvvəl Azərbaycan mədəniyyətinin təbliğində, mədəniyyət müəssisələrinin fəaliyyətlərinin canlandırılmasında, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində mühüm aparıcı qüvvəyə çevrilmişdir. Bu cür tədbirlərin keçirilməsində əsas məqsədlərdən biri də bütün bölgələrdən olan gənc mədəniyyət işçiləri arasında sıx əməkdaşlığın təmin olunmasından ibarətdir.

Daha sonra tədbir iştirakçıları Ağstafa şəhərindəki mədəniyyət və istirahət parklarına, yeni inşa olunmuş və yenidən qurulmuş mədəniyyət ocaqlarına ekskursiyası etdilər, xatirə şəkilləri çəkdirdilər.


BAŞ REDAKTOR: İBRAHİM ƏLİYEV

Həmtəsisçi: "Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.



Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20



Tiraj: 1000